# Konseptual metaforaya müxtəlif yanaşmalar

**Heydər Quliyev**
Azərbaycan Dillər Universiteti. Azərbaycan.
E-mail: heyderguliyev@mail.ru

**Annotasiya.** Məqalə hazırda koqnitiv tədqiqatlarda xüsusilə tez-tez istifadə olunan konseptual metaforaların müəyyənləşdirilməsinə, təhlilinə və fenomenin koqnitiv qüvvə kimi təsvir edilməsinə həsr edilmişdir. Metafora dil fenomeni olaraq yüzillər boyu dilçilərin, məntiqçilərin və filosofların diqqətini çəkmişdir. Bununla birlikdə, son zamanlarda metaforaya maraq artmış və ümumi xarakter qazanmışdır, bu da insan düşüncəsinin fəaliyyəti, elmi və gündəlik biliklərin nəticələrini verballaşdırma problemi ilə bağlı fikirlərə yenidən baxılması ilə əlaqələndirilir. Bu gün bu fenomenin tədqiqi üçün bir çox istiqamətlər mövcuddur. Məqalədə metafora, dil, təfəkkür və mədəniyyət arasındakı qarşılıqlı əlaqə fenomeni kimi araşdırılır.
**Açar sözlər:** konseptual metafora, mənbə sahəsi, hədəf sahəsi, müxtəlif yanaşmalar

**Məqalə tarixçəsi:** göndərilib – 15.01.2021; qəbul edilib – 25.01.2021

# Different approaches to conceptual metaphor

**Heydar Guliyev**
Azerbaijan University of Languages. Azerbaijan.
E-mail: heyderguliyev@mail.ru

**Abstract.** The article is devoted to the identification and analysis of conceptual metaphors that are currently especially often used in cognitive research and the description of the phenomenon as a cognitive power. Metaphor, as a linguistic phenomenon, has attracted the attention of linguists, logicians, philosophers for centuries. However, recently interest in metaphor has increased and acquired a total character, which is associated with a revision of views on the activity of human thinking and the problem verbalization of the results of scientific and everyday knowledge. Today, there are many areas of study of this phenomenon. The article examines metaphor as a phenomenon of interaction between language, thinking and culture.
**Keywords:** conceptual metaphor, source domain, target domain, different approaches

**Article history:** received – 15.01.2021; accepted – 25.01.2021

## Giriş / *Introduction*

Müasir metafora nəzəriyyəsində metaforanın ikidən on beşə qədər müxtəlif funksiyaları fərqləndirilir. Sözsüz ki, ən aparıcı funksiyası koqnitiv və yaxud **"yeni biliklərin kəşf olunması"** funksiyasıdır. Metaforaları koqnitiv-semantik fenomen kimi izah etmək üçün müxtəlif nəzəriyyələr mövcuddur: metaforaların koherent modeli, ilkin metaforalar nəzəriyyəsi, metaforik interpretasiyanın konnektiv nəzəriyyəsi, metaforik modelləşdirmə nəzəriyyəsi, metaforaların deskriptor nəzəriyyəsi. Lakin bunlardan ən məşhurları C.Ləkoff və M.Consonun **konseptual metaforalar nəzəriyyəsi** və M.Terner və J.Fokonyenin **blendinq nəzəriyyəsidir**. Koqnitiv metafora konseptuallaşmanın formalarından biri hesab olunur.

**Əsas hissə / *Main Part***

Metaforaların öyrənilməsilə təkcə dilçilər deyil, filosoflar və psixoloqlar da məşğul olmuşlar. F.Nitşe metaforanı dünyanı dərk etmək üçün dil modeli hesab edirdi. Filosofun fikrincə, metafora qnoseoloji funksiya daşıyır, yəni dil və düşüncə proseslərinin əlaqələrini şərtləndirir. Nitşedən fərqli olaraq E.Kassirer təfəkkürün bütün üsullarını metaforaya şamil etmirdi. O, iki mental fəaliyyəti fərqləndirirdi: metaforik (mifo-poetik) və diskursiv-məntiqi təfəkkür. E.Makkormakın sözlərinə görə, metaforanın yaranmasına səbəb, müəyyən mütəşəkkil əməliyyatlar vasitəsilə insan şüuru ilə müəyyən dərəcədə fərqlənməyən semantik konseptlərin müqayisəsidir. Metafora, bir tərəfdən, onun semantik referentlərinin xüsusiyyətləri arasında oxşarlıqların olduğunu nəzərə alır, çünki o başa düşülən olmalıdır, digər tərəfdən isə metafora bəzi yeni mənalar yaratmaq üçün yaradıldığından, aralarındakı fərqliliklər, bu ideal konstruksiyanı iki dərin struktur səviyyəsində yerləşdirir:

1. Semantik;
2. Koqnitiv.

O, semantik prosesin kökündə koqnitiv prosesin dayandığını düşünür və bu iki prosesi eyniləşdirmir. Ancaq onlar arasında, rəssamların öz hiss və təsəvvürlərini sözdən istifadə etmədən ifadə etməsində olduğu kimi, qeyri-verbal koqnitiv funksiyaların mövcudluğunu da inkar etmir. Metaforanı törədən 3 səviyyəni göstərir:

1. Səthi dil;
2. Semantika və sintaksis;
3. İdrak.

Bu üç səviyyə və ümumi prosesi "dərketmə prosesi" adlandırır. Metafora proses kimi iki anlamda təsvir edilə bilər: 1) ifadə edən (express) koqnitiv proses və 2) yeni anlayışlar formalaşdıran (suggest), bu anlayışların vasitəsilə dilin dəyişdiyi mədəni proses. Bu prosesləri izah etmək üçün alim epifora və diaforadan istifadə edir. Pol Rikerin metaforanın yaranması və yaradıcısı haqqındakı fikirləri diqqətəlayiqdir: "Metaforaların yaradıcısı – hərfi şərh üçün yararsız bir ifadədən, yeni şərh baxımından mənalı olan, metaforik ada layiq olan bir ifadə yaradan, metaforanı təkcə normadan kənara çıxan bir şey kimi deyil, həm də məqbul bir şey kimi qəbul edən, söz vergisi olan ustaddır. Başqa sözlə, metaforik məna təkcə semantik konfliktdə deyil, həm də hərfi mənanın xarabalıqlarından yaranan *yeni* predikativ mənadan ibarətdir, yəni sözlərimizin adi və ya geniş leksik mənalarına istinadən yaranan məna. Metafora tapmaca deyil, tapmacanın həllidir" [7, s.419-420]. M.Reddi iddia edir ki, insan ünsiyyəti haqqında danışmaq üçün işlətdiyimiz metaforalar bizi ünsiyyətə yanlış istiqamətdən baxmağa, qeyri-konstruktiv mövqedən yanaşmağa sövq edir. O, ingilis dilində metalinqvistik resursların aşkar olduğunu və normal istifadə edilməsini "keçid metaforalar" adlandırır. Bu metafora təbii dildə ünsiyyət üçün ideyalara əsaslanır. Dil ideyaların, düşüncələrin, arzuların və s. daşıyıcısıdır. Dinləyici ötürülən ismarıcların içərisindəkiləri götürməlidir.

Syörl bu kimi sualları aydınlaşdırmağa çalışır: metafora nədir və o, həqiqi ifadədən və başqa fiqurlardan nə ilə fərqlənir? Nəyə görə biz nəzərdə tutduğumuzu dəqiq və həqiqi mənada ifadə etməkdənsə, metaforik ifadələrdən istifadə edirik? Metaforik ifadələr necə işlənir? Nəyə görə onlardan bəziləri uğurlu, digərləri isə uğursuz olur? O qeyd edir ki, metafora problemi bir tərəfdən söz və cümlənin mənası, digər tərəfdən isə ifadənin və danışanın mənası arasında əlaqədir; metaforik məna həmişə danışanın ifadəsinin mənasıdır; metaforik ifadənin mənası ilə cümlə mənası arasındakı əlaqə təsadüfi və ixtiyari deyil, müntəzəmdir. Syörl metaforik ifadənin təsvirində həqiqi ifadənin nəzərə alınmalı olan üç xüsusiyyətini göstərir:

**1.** Birincisi, həqiqi ifadədə danışan nə dediyini nəzərdə tutur; başqa sözlə, cümlənin həqiqi mənası danışanın ifadəsinin mənası ilə üst-üstə düşür.

**2.** İkincisi, ümumi vəziyyətdə, cümlənin həqiqi mənası, həqiqilik şərtlərinin məcmusunu yalnız cümlənin semantik məzmununa daxil olmayan fon fərziyyələri məcmusuna nisbətdə müəyyən edir.

3. Üçüncüsü, hər hansı bir həqiqi predikasiyanın təsvirində oxşarlıq anlayışı olmadan bir şey etmək mümkün deyil [6, s.311].

Alim metaforanın işlənməsinin əsaslandığı prinsiplərin oxşarlığın həqiqi ifadələri ilə eyni olduğunu bildirir və bura ellipsis prinsipini də əlavə edir. Metaforanı həqiqi oxşarlığın qısaldılmış variantı kimi başa düşür. Həqiqi oxşarlığı anlamaq üçün heç bir xüsusi ekstralinqvistik bilik tələb olunmadığından, metaforanı anlamaq üçün lazım olan biliklərin çoxunun artıq danışanın və dinləyənin semantik kompetensiyasında, həqiqi mənanı başa düşməyə imkan verən dünya haqqında ümumi fon bilikləri ilə birlikdə mövcud olduğunu qeyd edir. Onun fikrincə metafora məhdud və sistemlidir. O mənada məhduddur ki, bir mahiyyətin digərini xatırlatmaq qabiliyyətinin heç də hamısı metafora üçün əsas ola bilməz; o mənada sistemlidir ki, ünsiyyət prosesində ünsiyyətçilər üçün prinsiplər məcmusuna əsaslanan metaforalar danışandan dinləyənə ötürülə bilməlidir. Syörl metaforanın anlaşılması üçün bir-birini təkzib edə bilən səkkiz prinsip irəli sürür. Bu prinsipdə metonimiya və sinekdoxaya metaforanın xüsusi halı kimi yanaşır və digər prinsipləri onlara da şamil edir. Nəhayət, o belə qərara gəlir: "Metaforadan ona görə tez-tez və müntəzəm istifadə edirik ki, nə demək istədiyimizi tam ifadə edən həqiqi ifadələr yoxdur" [6, s.340]. Metaforanın mənası aydın olmadıqda, uzun yol olsa da, parafrazdan istifadə etməyi məsləhət görən Syörl fikirlərini konkretləşdirir: "Parafrazada maksimum əldə edə biləcəyimiz, metaforik ifadənin həqiqilik şərtlərini törətmək; lakin metaforik ifadə yalnız həqiqilik şərtlərini çatdırmır. O, (metaforik ifadə – H.Q.) həmin ifadənin həqiqilik şərtləri toplusuna daxil edilməyən həqiqilik şərtlərini başqa bir semantik məzmun vasitəsilə çatdırır. Yaxşı metaforaların hissəsi olan hiss etdiyimiz ifadə gücü əsasən iki xassə ilə bağlıdır. Dinləyəndən danışanın nə demək istədiyini müəyyən etmək tələb olunur – onun ünsiyyətə verdiyi töhfə passiv qavrayışdan daha çox olmalıdır – və o fərqli bir semantik məzmuna keçərək buna nail olmalıdır (ünsiyyətdə olduğundan). Anladığım qədər, Dr. Conson, metaforalar bizə birinin əvəzinə iki fikir verdiyini söylədikdə tam olaraq bunu nəzərdə tuturdu" [6, s.340].

Düşüncə və metaforanın əlaqəsinin aşkar edilməsində filosofların və psixoloqların rolu böyük olmuşdur. Psixoloqlar bir çox səbəblərə görə metafora ilə maraqlanırdılar. Bunlardan biri dil və təfəkkür ilə əlaqəli olmasıdır. Dilin özü psixoloji proses olduğu və psixoloji proseslərdə, psixoloji nəzəriyyələrdə bu və ya digər formada iştirak etdiyi üçün psixoloqları cəlb edirdi. Digər səbəb metaforanın onları təfəkkürün arxa planda qalmış koqnitiv strukturlarına daha da yaxınlaşdırdığına inanmaları idi. Metafora düşüncə genişliyidir. Sonralar bu kimi məsələlər dilçiləri cəlb etdi və metafora ideyaların qarşılıqlı əlaqəsi kimi diqqət mərkəzində durdu. Nitşenin modelindən istifadə edən İ.A.Riçards düşüncənin metaforik xarakter daşıdığını güman edirdi. Bu yanaşma xüsusilə İ.A.Riçardsın "Ritorikanın fəlsəfəsi" əsərindən sonra geniş vüsət aldı. O, qeyd edirdi ki, metafora yalnız linqvistik fenomen deyildir, o, insanın düşüncə tərzidir. İ.A.Riçards metaforanın iki aspektinin olduğunu iddia edir:

1) Metaforanı işarə edən söz, yaxud ifadə;

2) Metaforik mənada işlənən söz, mexanizm (vehicle) və topik (topic), yaxud tenor (tenor).

Sözün ədəbi, yaxud metaforik olmasını, bir, yaxud iki ideya vermәsini ayırd etmək də asan iş deyil. Əgər biz tenoru mexanizmdən (vehicle) fərqləndirə bilmiriksə, sözü şərti olaraq ədəbi kimi, əgər iki birgə işlənməni görürüksə, metafora kimi götürə bilərik.

İ.A.Riçardsın bu ideyalarına əsaslanaraq, C.Ləkoff və M.Conson metaforanı yeni aspektdən ***konseptual metafora*** kimi təqdim etməyə başladılar. D.Kasasanto *konseptual metafora* termininin çoxmənalı olduğunu, bəzən dildəki ifadələrə digər hallarda isə mental reprezentasiyalara şamil olunduğunu və bu çoxmənalılığın metaforik dillə metaforik düşüncənin əlaqəsi haqqındakı müzakirələri mürəkkəbləşdirdiyini qeyd edir. O, dildəki ifadələri *linqvistik metafora*, linqvistik metaforaların əsasını təşkil etdiyi güman edilən qeyri-linqvistik mənbə və hədəf domenləri arasındakı implisit assosasiyaları işarə etmək üçün isə *mental metafora* terminlərindən istifadə edərək konseptual metaforaların *linqvistik* və *qeyri-linqvistik* [kursiv bizimdir – H.Q.] komponentlərini fərqləndirməyi təklif edir. Mental metaforalar müvafiq linqvistik me-

taforanın yoxluğunda belə mövcud ola bilir. Mental metaforaları ortaya çıxaran səbəblərə müxtəlif dilçilərin cavabları fərqlidir. C.Ləkoff və M.Conson mental metaforaların fiziki dünya ilə qarşılıqlı əlaqə sayəsində əldə edilən təcrübədən öyrənildiyini: S.Pinker anadangəlmə, fitri olduğunu; D.Gentner isə dil ilə təcrübədən öyrənildiyini iddia edir. C.Ləkoff və M.Conson S.Pinkerin bu iddialarından dilin mental metaforaların inkişafında heç bir rola malik olmadıqlarını, D.Gentnerdə isə zəruri olduğunu görürük. Əlbəttə, burada "yaş" ın böyük əhəmiyyəti var. Erkən yaşlarda biz fiziki və sosial dünyanı müşahidələrimizlə, sonra isə dilimizlə öyrənirik. Bu iki amilin birləşməsi nəticəsində koqnitiv metaforalar formalaşır. C.Ləkoff və M.Conson Konseptual Metafora Nəzəriyyəsini koqnitiv elmin üç əsas tapıntısından biri hesab edirlər:

1. Təfəkkür özünəməxsus surətdə yaradılmışdır.
2. Düşüncə əsasən qeyri-iradidir.
3. Abstrakt konseptlər çoxluqla metaforikdir [4, s.3].

Alimlər metaforanı insan düşüncəsi və davranışı ilə əlaqəli olan konseptual fenomen kimi irəli sürdülər. Bu, onların "Yaşadığımız metaforalar" əsərində metaforalar koqnitiv semantika işığında tədqiq olunur, "...metafora bizim gündəlik həyatımıza daxil olmuşdur, təkcə dildə deyil, eyni zamanda düşüncə və davranışlarımıza. Bizim adi konseptual sistemimiz düşüncə və davranışımız çərçivəsində təbiətən metaforikdir" [5, s.25]. Bizim anlamamız və dünyagörüşümüz dil vasitəsilə təşkil və ifadə olunur. Biz təcrübəmizi əsasən metaforalar və metonimlər vasitəsilə konseptuallaşdırırıq (qavramlaşdırırıq). Misal üçün SEVGİ konseptini götürək. Sevginin necə bir şey, pis, yaxud yaxşı, acı, yoxsa şirin və s. olduğunu anlamaq üçün öz təcrübəmizi koqnitiv modellər vasitəsilə ifadə etməyə çalışırıq:

*Onu görəndə yaşamaq həvəsim artır.*
*Məni həyata bağlayan onun sevgisidir.*
*Onun eşqi ilə alovlanıram.*
*Dərdindən dəli-divanəyəm.*
*Sevgisindən güc alıram.*
*Ona aşiq olana qədər xoşbəxtliyi hiss etməmişdim.*

Bu cümlələrin hamısı bizim sevgi haqqında düşüncələrimizi, təcrübələrimizi ifadə edir. *Onu görəndə yaşamaq həvəsim artır* və *Məni həyata bağlayan onun sevgisidir* cümlələri SEVGİ konseptinin YAŞAMAQ anlamı ilə səsləşdiyini (assossasiyasını) əks etdirir. SEVGİ YAŞAMAQDIR konseptual metaforası bir konseptin (sevgi) başqa bir konsept (yaşamaq) vasitəsilə anlanılmasında öz koqnitiv funksiyasını yerinə yetirir. Metaforikləşmə prosesi mənanın yaranmasında vacib rol oynayan faktorlardan biridir. "... mənalılıq yalnız mental strukturları ehtiva etmir, həm də təcrübənin özünün strukturlaşmasıdır" [3, s.302].

Metaforalar konseptləşmə prosesinin bariz nümunələridir. Metaforik konseptləşmə iki konseptual domen strukturları - *mənbə domen (source domain)* və *hədəf domen (target domain)* arasında baş verir. Mənbə domen hədəf domendən daha aydın, daha konkretdir. Onlar *mənbə* və *hədəf* arasındakı əlaqəni təcrübə və onun necə konseptuallaşmasının fərqini göstərən *özül (zəmin)* (grounding) anlayışı vasitəsilə aydınlaşdırırlar, "... biz iddia etmirik ki, fiziki təcrübə hər hansı mənada təcrübənin digər növləri: emosional, mental, mədəni, yaxud başqalarından daha əsasdır. Təcrübənin bütün bu növləri fiziki təcrübə kimi əsas ola bilər. *Özül (grounding)* [kursiv bizimdir – H.Q.] barəsində bizim iddiamız odur ki, fiziki olmayanlar fiziki olanlar vasitəsilə konseptuallaşır, yəni daha az aydın olanları daha cox aydın olanlarla konseptuallaşdırırıq" [5, s.95-96]. Təcrübə mədəniyyətdən qazanıldığına görə alimlər metaforanın mədəniyyətlə sıx əlaqədə olduğunu və bütün metaforaların güclü mədəni əsaslara malik olduqlarını qeyd edirlər. Bütün metaforalar təcrübəyə əsaslandığından onlar və növləri arasında oxşarlıq şübhəsizdir, yəni konseptuallaşan insan təcrübəsidir. C.Ləkoff və M.Conson konseptual metaforaların bizim təcrübəmiz daxilindəki əlaqələrə (correlations) əsaslandığını düşünürlər. İki təcrübi əlaqə növü (experiential correlations) fərqləndirirlər:

1. Təcrübi birgəişlənmə (experiential cooccurence);

2. Təcrübi oxşarlıq (experiential similarity). Təcrübi birgəişlənməyə misal kimi *More is up* (*Daha yuxarıdır*) metaforunu göstərirlər. Bu metafora iki təcrübə növünün birgəişlənməsinə söykənir: daha çox maddə əlavə etmək və maddənin səviyyəsinin qalxmasını görmək. Burada təcrübi oxşarlıq ümumiyyətlə yoxdur. Təcrübi oxşarlığa, birinin həyatı qumar kimi təcrübədən keçirdiyi və bu hərəkətlərin nəticəsi olaraq qalibiyyəti, yaxud məğlubiyyəti qəbil etməsini ifadə edən *Life is a gambling game* (*Həyat qumar oyunudur*) metaforunu misal göstərirlər. Metafora genişləndikcə, həyat və qumar arasındakı yeni oxşarlıqları təcrübə edə bilərik.

Metaforaların işlənmə mövqeləri də olduqca əhəmiyyətli hesab olunur. C.Ləkoff və M.Törner iki mövqe fərqləndirir:

1. Güclü mövqe;
2. Zəif mövqe.

Güclü mövqedə hər konseptin hər bir aspekti metaforalar vasitəsilə tamamilə başa düşülür. Zəif mövqedə isə hər bir linqvistik ifadə bir konsept ifadə edir, yəni ən azı bəzi aspektlər metaforalar vasitəsilə anlaşılır. Əksər konseptlərin əksər aspektləri metaforik olmadığına görə zəif mövqe o qədər də önəm daşımır. Onun əsas vəzifəsi metaforaları tədqiq edərkən konseptləri linqvistik ifadələrdən fərqləndirməkdir. Əgər bu fərq olmasa, güclü mövqe ilə zəif mövqeni ayırd etmək mümkün olmaz. Alimlər güclü mövqeni süni adlandırırlar: "Metaforalar bizə bir təcrübə domenini başqası vasitəsilə anlamağa imkan verir. Bunun üçün müəyyən zəmin olmalıdır, metaforalar vasitəsilə tam anlaşılmayan bəzi konseptlər mənbə domen kimi çıxış edirlər" [1, s.133-135].

Ləkoff və Conson metaforaları üç yerə ayırır:

1) Struktur metaforalar (bir anlayışın digər bir metaforik anlayışla verilməsi, strukturlaşmasıdır);

2) Orientasion metaforalar (konseptə məkan orientasiyası verir);

3) Ontoloji metaforalar (metaforaların müxtəlif növləri müxtəlif məqsədlər üçün istifadə edilir).

Bu üç növdən başqa Ləkoff və Conson konsept və təcrübə arasında oxşarlığa malik, konvensional konseptual sistemimizdən kənar, obrazlı və yaradıcı olan, təcrübəmiz haqda bizə yeni anlam verən, keçmişimizə, gündəlik fəaliyyətimizə, bildiklərimizə və inandıqlarımıza yeni məna verə bilən **Yeni metafora** anlayışını da təqdim edirlər. "Yeni metaforanın təcrübəmizə verdiyi yeni məna mədəniyyətlərə görə dəyər qazanır. Fərqli mədəniyyətə sahib olan insanların təcrübəsinə eyni metafora eyni yeni məna vermir. Təcrübələrimizi metaforalar vasitəsilə dərk etdikdə Yeni metaforalar yeni reallıqlar yaratmaq gücünə malik olurlar. Mədəni dəyişikliklər yeni metaforik konseptlərin meydana çıxması və köhnələrin yox olması nəticəsində mümkün olur. Yeni metaforalar əsasən strukturaldır. Struktur metaforalar yeni metafora yaratmaq üçün əhəmiyyətlidir: "Struktur metaforalar belə təkmilləşməni zəngin mənbə ilə təmin edir. Struktur metaforalar orient konseptlərə nisbətən daha çoxunu etməyə bizə imkan verir, onlara müraciət etmək, artırmaq və s. sadə orientasion və ontoloji metaforalarla etdiyimiz kimi: onlar bizə çox strukturlaşmış və aydın şəkildə ayrılmış konseptlə başqasını strukturlaşdırmağa imkan verir" [6, s.97]. Alimlər konseptual sistemimizin kateqoriyaları və təcrübəmizin təbii növləri vasitəsilə bu metafora növləri arasında oxşarlıqların (similarities) olduğunu iddia edirlər. Orientasion metaforalarda *more is up* (daha yuxarıdır) və *happy is up* (xoşbəxtlik yuxarıdır), *more* və *happy* arasındakı oxşarlığı dərk edirik. Ontoloji metaforalarda *time* (zaman ) və *labor* (iş) sözlərinə metaforik olaraq *substansiya* kimi baxsaq hər ikisini resurs kimi dərk edərik. Struktur metaforalarda oxşarlığa misal kimi *ideas are food* (ideyalar meyvələrdir) metaforunu göstərirlər. Hər ikisinin insanı bəsləməsi *ideas* və *food* arasında oxşarlıq kimi qəbul edilir. Yeni metaforalarda oxşarlığı isə *Love is a collaborative work of art* (*Sevgi birgə incəsənət əsəridir*) metaforası əsasında izah edirlər. Burada bəzi sevgi təcrübələri nəzərdə tutulmur, *sevgi* və *incəsənət işi* (sevgi işdir; sevgi estetik təcrübədir) arasında oxşarlıq əsas götürülür. Bundan başqa, Ləkoff və Conson təcrübənin iki sahəsi arasında sadə oxşarlıq çərçivəsinə sığmayan əlavə oxşarlığı, *struktur oxşarlığı* irəli sürürlər. Alimlərin metaforaların oxşarlıq törətməyə qadir olması nəzəriyyəsi; metaforalar yalnız dilə aiddir, düşüncə, yaxud

insan fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur; metafora yalnız artıq mövcud olan oxşarlığı təsvir edə bilər, yeni oxşarlıq yarada bilməz, kimi fikirlər irəli sürən, obyektivist fəlsəfəyə söykənən klassik metafora nəzəriyyəsinin əleyhinədir. Ləkoff və Conson metaforanın ilk növbədə düşüncə və fəaliyyətlə, sonra isə dillə əlaqəli olduğunu, metafora üçün yalnız empirik oxşarlığın relevantlığını qeyd edirlər. "Qısa desək, metaforanın məkanı qətiyyən dildə deyil, bir mental domeni başqası vasitəsilə konseptuallaşdırmağımızdadır [2, s.203].

Gündəlik dildə metaforik ifadələrin gündəlik fəaliyyətimizi strukturlaşdıran konseptlərin metaforik təbiəti barədə bizi nə qədər aydınlada biləcəyinə dair bir fikir əldə etmək üçün müasir Azərbaycan dilində VAXT HƏYATDIR metaforik konseptini nəzərdən keçirək:

***TIME HANGS HEAVY ON ONE'S HANDS*** – *VAXT GETMİR*

He was not allowed to read or write or smoke, but just had to walk about, and ***the time hung heavily on his hands***. S.Maugham. Of human bondage.

**ALL IN GOOD TIME** – *HƏR ŞEY VAXTINDA GÖZƏL*

"You'll know some day,dear. ***All in good time***;" and, to divert interrogations,the issue of which could not be avoided, Mamma considered it no sin to lie whitely,and speciously to maintain inviolate the pride and dignity of the family. A.Cronin. The body in the library.

***GAIN TIME*** – *VAXT QAZANMAQ*

She raised her hand and adjusted the ruffle of lace at her neck, turning her head a littleas she did so. And quite spontaneously the thought flashed across my mind: "She is ***gaining time***!."A.Christie. The mysterious affair at styles.

***SAVE TIME*** – *VAXTDAN SƏMƏRƏLİ İSTİFADƏ ETMƏK. VAXTA QƏNAƏT*

One could ***save time*** by taking a narrow path through the long grass, which cut off the detours of the winding drive. A.Christie. The mysterious affair at styles.

***LOSE TIME*** – *VAXT İTİRMƏK. VAXTINI BOŞ, ƏBƏS YERƏ SƏRF ETMƏK*

No ***time was lost*** in giving effect to the resolutions by the Kalgoorlie meeting.Almost immediately a conference was summoned which met in Coolgardie. K.Prichard. The roaring nineties.

***KILL TIME*** – *VAXT ÖLDÜRMƏK*

But I am well aware, of course, that all these delightful hypotheses are inadmissible.In reality I write as I do merely to ***kill time*** and amuse a mind that is still, in spite of all my efforts, a prey to intellectual self-indulgance. A.Huxley. Those barren leaves.

Hər bir mədəniyyətdə *vaxt/zaman* dəyərli olduğu kimi, bizim mədəniyyətimizdə də vaxt çox qiymətli hesab edilir. Həyatda edə biləcəklərimizi proqramlaşdırdıqdan sonra onları *vaxtı gəldiyində* bir-bir reallaşdırmağı hədəfləyirik. Hər bir əməyin qarşılığında aldığımız müəyyən məvacib həm də itirilmiş vaxtımızın da kompensasiyasıdır (nisbi olaraq, çünki məvaciblə itirilmiş vaxtın, sərf edilmiş əməyin əvəzinin ödənməsi tam adekvat deyil). Belə *vaxt anlayışı* bütün fəaliyyətimizi strukturlaşdırır. Zaman da ömür kimi tükənən olduğundan onu faydalı, səmərəli işlərə sərf etməyə, həyatdan zövq alaraq keçirməyə çalışırıq. Biz vaxtı tükənən, xərclənən, alınan, sərf edilən, itirilən, gələn, gedən, öldürülən, qənaət edilən, qazanılan kimi qavramlaşdırırıq (konseptuallaşdırırırq). Bu qədər vacib bir anlayışın həyatla assosasiya olunması labüddür. Həyata ikinci dəfə gəlməyəcəyimiz kimi, vaxtı da ikinci dəfə əldə etməyimiz qeyri-mümkündür. Buna görə də, VAXT HƏYATDIR dedikdə vaxt vasitəsilə həyatın qiymətini daha da aydın dərk edirik. Müəyyən qədər vaxt itirmək, həyatının müəyyən hissəsini itirməyə bərabərdir. Həyatını itirmək insana yaşamaq, ömür sürmək üçün verilmiş vaxtın itirilməsi, yaxud da həmin vaxtın bitməsi deməkdir.

## Nəticə / *Conclusion*

Metafora fundamental zehni fiqurdur. Yeni metafora yaratmaq qabiliyyət tələb edir. Burada metaforanı təşkil edən sözlərin hər birinin ayrılıqda mənaları deyil, onların birləşməsinin yaratdığı məna əsasdır. Bu yeni metaforanın işlənməsi və anlaşılması isə növbəti mərhələdir.

Onun üçün uyğun məqamı *sezmək* vacibdir. Uyğun metaforanın münasib zamanda işlənməsi üçün ***metaforik mühit*** olmalıdır. Həmin mühiti hiss etmək, qabaqlamaq danışanın iti zəkasından asılıdır. Hər kəs metaforalardan düzgün istifadə edə bilmir. Elə hallar olur ki, danışan işlətdiyi metaforanın *ölü (qeyri-aktiv),* yaxud *diri (aktiv)* olduğunu bilmir. Ölü metaforalara *daşlaşmış metaforalar* da demək olar, çünki onların şərhi üçün əlavə şüur fəaliyyətinə ehtiyac yoxdur, onlar *mental fondda* mövcuddurlar.

Qeyd edək ki, bu nəzəriyyəyə görə, metaforalar müxtəlif yollarla – təkcə dildə deyil, həm də jestlərdə və mədəni adətlərdə ifadə edilə bilər. Buna görə də metaforaların öyrənilməsi daha geniş mövzunu – dil və mədəniyyət arasındakı əlaqəni işıqlandıra bilər. Rasional təfəkkür böyük ölçüdə metaforik modelə söykənir. Təcrübəni anlamaq üçün metaforaları cəlb etmək insan düşüncəsinin ən vacib zəfərlərindən biridir. İnsanın daxili aləminin söz dünyasını bəzəyən *metaforik bazadır*.

**Ədəbiyyat / *References***


1. Lakoff George and Mark Turner 1989: More than cool reason: A field guide to poetic metaphor. Chicago: University of Chicago Press.
2. Lakoff G. The contemporary theory of metaphor. Metaphor and Thought, A.Ortony (ed.), 202-251. Cambridge: Cambridge University Press, 1993.
3. Lakoff George. (1987). Women, fire and dangerous things: what categories reveal about the mind. Chicago: University of Chicago Press.
4. Lakoff G., & Johnson, M. (1999). Philosophy in the flesh: The embodied mind and its challenge to western thought. Chicago: University of Chicago Press.
5. Лакофф Дж., Джонсон М. Метафоры, которые мы живем. М.: УРСС, 2004.
6. Сёрль Дж. Р. Метафора // Теория метафоры. М.: Прогресс, 1990.
7. Теория метафоры: Сборник: Пер. с анг., фр., нем., исп., польск. яз. / Вступ. ст. и сост. Н.Д.Арутюновой; Общ. ред. Н.Д.Арутюновой и М.А.Журинской. М.: Прогресс, 1990.


## Различные подходы к концептуальной метафоре


**Гейдар Гулиев**
Азербайджанский Университет Языков. Азербайджан.
E-mail: heyderguliyev@mail.ru



**Резюме**. Статья посвящена выявлению и анализу концептуальных метафор, которые в настоящее время особенно часто используются в когнитивных исследованиях, и описанию феномена как когнитивной силы. Метафора как языковое явление веками привлекала внимание лингвистов, логиков, философов. Однако в последнее время интерес к метафоре возрос и приобрел тотальный характер, что связано с пересмотром взглядов на деятельность человеческого мышления и проблемой вербализации результатов научного и повседневного познания. Сегодня существует множество направлений изучения этого явления. В статье исследуется метафора как феномен взаимодействия языка, мышления и культуры.



**Ключевые слова:** концептуальная метафора, исходная область, целевая область, различные подходы